**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 7.2-ci maddəsinə əsasən **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə" təsdiq edilsin (Əlavə I).

2. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu" təsdiq edilsin (Əlavə II).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. üç ay müddətində Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 iyun 2012-ci il
№ 646

**Əlavə I**

Azərbaycan Respublikası
Prezidentinin
2012-ci il 4 iyun tarixli 646
nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında**

**ƏSASNAMƏ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra - Komitə) bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, gömrük işi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Komitə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Komitə öz fəaliyyətini qanunun aliliyi, insan hüquqlarının və azadlıqlarının qorunması, şəxslərin qanun qarşısında hüquq bərabərliyi, aşkarlıq, peşəkarlıq və xidmətdə nizam-intizam prinsipləri əsasında qurur.

1.5. Komitə müstəqil balansa, qanunvericiliyə uyğun olaraq istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, emblemə, bayrağa, müvafiq ştamplara və blanklara malikdir.

1.6. Komitənin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Komitə Bakı şəhərində yerləşir.

## 2. Komitənin fəaliyyət istiqamətləri

2.1. Komitənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. gömrük işi sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.1.2. gömrük işini təşkil edir və onun inkişafını təmin edir;

2.1.3. gömrük işi sahəsində normayaratma fəaliyyətini həyata keçirir;

2.1.4. hüquq mühafizə fəaliyyətini həyata keçirir;

2.1.5. Azərbaycan Respublikasında qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil edir.

## 3. Komitənin vəzifələri

3.1. Komitə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. gömrük işi sahəsində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.2. qanunvericilikdə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının iqtisadi və milli təhlükəsizliyini təmin etmək;

3.1.3. icrasına nəzarət gömrük orqanlarına həvalə edilmiş qanunvericilik aktlarına riayət olunmasını təmin etmək;

3.1.4. gömrük işinə dair qanunvericilik aktlarının pozulması hallarının qarısını almaq və müvafiq araşdırmalar aparmaq;

3.1.5. malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsini təşkil etmək, onun təkmilləşdirilməsi və sadələşdirilməsi üçün tədbirlər görmək;

3.1.6. mallar və nəqliyyat vasitələri gömrük sərhədindən keçirilərkən nəzarəti və gömrük rəsmiləşdirilməsi qaydalarına riayət olunmasını təmin etmək;

3.1.7. gömrük ödənişlərinin alınmasını təmin etmək;

3.1.8. gömrük rüsumlarının, müvafiq vergilərin və dövlət rüsumunun vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsini təmin etmək;

3.1.9. qanunvericilikdə nəzərdə tutulmuş qaydada malların gömrük dəyərinin düzgün müəyyən olunmasına nəzarət sistemini təşkil etmək;

3.1.10. *normativ hüquqi aktlarda* nəzərdə tutulmuş hallarda ~~lisenziya və~~ ixtisas attestatları vermək, onları ləğv etmək və ya onların fəaliyyətini dayandırmaq; [1]

3.1.11. malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin sürətləndirilməsi üçün əlverişli şərait yaratmaq;

3.1.12. gömrük sərhədindən keçirilən mallar barəsində ticarət siyasəti tədbirlərinin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.13. gömrük işi sahəsində cinayətlərə, həmçinin qaydaları əleyhinə inzibati xətalara və digər hüquqpozmalara qarşı mübarizə aparılması, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozondağıdıcı maddələrin, xalqların mədəni, tarixi və arxeoloji sərvətlərinin, əqli mülkiyyət hüquqlarının obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların və bitki növlərinin, həmçinin başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq;

3.1.14. Azərbaycan Respublikasının dəmiryol vağzallarında, dəniz, çay və hava limanlarında, habelə digər yerlərdə beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə digər hüquq mühafizə orqanlarına yardım göstərmək;

3.1.15. milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması sahəsində tədbirlərin həyata keçirilməsində müvafiq dövlət orqanlarına yardım göstərmək;

3.1.16. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində bioloji sərvətlərdən səmərəli istifadə edilməsi və qorunması üzrə dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, onlar gömrük sərhədindən keçirilərkən qanunvericiliyin tələblərinin yerinə yetirilməsinə nəzarəti təmin etmək;

3.1.17. insan alverçilərinin, habelə insan alveri qurbanlarının gömrük sərhədindən keçməsinin qarşısını qanunvericilikdə nəzərdə tutulmuş qaydada almaq;

3.1.18. Azərbaycan Respublikasında xarici ticarətin gömrük statistikasını və xüsusi gömrük statistikasını beynəlxalq standartlara və təcrübəyə uyğun aparmaq və təkmilləşdirmək;

3.1.19. gömrük ərazisinə gətirilən mallara münasibətdə istehlakçıların hüquqlarının müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində müvafiq dövlət orqanlarına yardım göstərmək;

3.1.20. Komitənin fəaliyyəti ilə əlaqədar insan və vətəndaş hüquqlarının və

azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.21. gömrük işini həyata keçirərkən şəxslərin hüquqlarının və maraqlarının qorunması üzrə tədbirlər görmək;

3.1.22. milli *valyuta* və valyuta sərvətlərinin gömrük sərhədindən müvafiq qanunvericiliyə uyğun olaraq keçirilməsinə nəzarət etmək, habelə qanunla müəyyən edilmiş hallarda valyuta nəzarətini həyata keçirmək*, o cümlədən milli valyutanın və valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından çıxarılması zamanı, cinayət yolu ilə əldə edilmiş ~~pul vəsaitlərinin və ya digər~~ əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi izlərini aşkar etdikdə, cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görmək, əldə olunmuş məlumat və sənədləri aidiyyəti üzrə cinayət təqibini həyata keçirən orqana göndərmək, habelə bu barədə məlumat və sənədləri maliyyə monitorinqi orqanına təqdim etmək*;[2]

3.1.23. gömrük işi ilə əlaqədar beynəlxalq müqavilələrin layihələrinin işlənib hazırlanmasında iştirak etmək, bu müqavilələrdə nəzərdə tutulmuş beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.24. qanunvericilikdə nəzərdə tutulmuş qaydada ixrac nəzarətini həyata keçirmək;

*3.1.24-1. "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kimyəvi maddələr üzrə idxal, ixrac və tranzit əməliyyatlarını həyata keçirən müəssisələrin mərkəzləşdirilmiş qeydiyyatını aparmaq, habelə həmin müəssisələr haqqında illik bəyannamələri hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;*[3]

3.1.25. dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən mallar üzərində qanunvericiliyə uyğun olaraq baytarlıq, fitosanitar və sanitariya nəzarətini "bir pəncərə" prinsipi əsasında mümkün qədər qısa vaxtda həyata keçirmək;

*3.1.25-1. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada sığortalanmasına (sərhəd sığorta müqaviləsinə və Azərbaycan Yaşıl Kartı növünə münasibətdə) nəzarət etmək;*[4]

3.1.26. ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan qonşu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə keçən nəqliyyat vasitələrini baytarlıq qanunvericiliyində müəyyən edilmiş qaydada və müddətdə məcburi dezinfeksiya etmək;

3.1.27. başqa ölkələrdən gətirilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün onların təcrid olunmuş halda saxlanılmasının təmin edilməsi məqsədi ilə müvafiq ərazi dövlət baytarlıq müfəttişliyinə məlumat vermək;

~~3.1.28. beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə dövlət sərhədinin buraxılış məntəqələrində qanunvericiliyə uyğun olaraq icazə blankları vermək;~~[5]

*3.1.28-1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə və 'Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq fəaliyyət növlərinə icazə, onların dublikatlarını və əlavələrini vermək, həmin icazələri yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, habelə icazə şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək;*[6]

3.1.29. gömrük işi sahəsində yeni informasiya sistemlərinin və texnologiyalarının tətbiqini, o cümlədən gömrük prosedurlarının elektron modellərinin, gömrük orqanlarının elektron məlumat sisteminin yaradılmasını, gömrük orqanlarının informasiya ehtiyatlarının formalaşdırılmasını və digər elektron xidmətlərinin göstərilməsini təmin etmək;

3.1.30. müasir texnologiyalardan və avadanlıqlardan istifadə etməklə, gömrük işi sahəsində riskləri idarəetmə sistemi əsasında gömrük nəzarətini təkmilləşdirmək;

3.1.31. xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının aparılması ilə əlaqədar müvafiq tədbirlər görmək;

3.1.32. gömrük işi sahəsində elmi tədqiqat işləri aparmaq və bu sahəyə aid məsləhətlər vermək;

3.1.33. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, gömrük işi sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.34. dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə qanunvericiliklə müəyyən edilmiş qaydada məlumatlar vermək;

3.1.35. dövlət orqanları, xarici ticarətin iştirakçıları və səlahiyyətli iqtisadi operatorlarla məlumatların elektron formada mübadiləsini həyata keçirmək;

3.1.36. müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada malların idxalı və ixracı barədə məlumatların digər dövlətlərin gömrük xidmətləri ilə elektron formada mübadiləsi, gömrük rəsmiləşdirilməsi və nəzarəti müddətinin mümkün qədər qısaldılması, beynəlxalq ticarət-təchizat zəncirinin kompleks idarə olunmasında iştirak etmək yolu ilə beynəlxalq ticarətin asanlaşdırılmasına şərait yaratmaq;

3.1.37. beynəlxalq ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə xarici ticarətin iştirakçıları və səlahiyyətli iqtisadi operatorlarla tərəfdaşlıq əlaqələri yaratmaq;

3.1.38. digər dövlət orqanları ilə əməkdaşlıq etmək, həmçinin müvafiq məqsədlərə nail olmaq üçün qanunvericilikdə nəzərdə tutulmuş hallarda onların fəaliyyətini əlaqələndirmək;

3.1.39. gömrük işi sahəsində islahatlar aparılmasını təmin etmək və bu sahədə inkişafı sürətləndirmək məqsədi ilə dövlət proqramları hazırlamaq və onların yerinə yetirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.40. digər dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini Komitənin səlahiyyətinə aid məsələlər üzrə təmin etmək;

3.1.41. qanunvericiliyə uyğun olaraq gömrük orqanlarının və Komitənin tabeliyində olan digər qurumların fəaliyyəti üçün zəruri şərait yaradılması, onların maliyyə və digər maddi-texniki təminatı ilə bağlı tədbirləri həyata keçirmək;

3.1.42. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın, *o cümlədən həyata keçirilən xarici ticarət əməliyyatları zamanı risk qrupları üzrə buraxılış sistemlərindən istifadə ilə bağlı, habelə idxalatçıların müəyyən risk qrupuna aid edilməsi və ya onların risk qruplarının dəyişdirilməsi barədə məlumatların* həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək; [7]

3.1.43. informasiya və məsləhət təminatı işini təşkil etmək, fiziki və hüquqi şəxslərin müraciətləri əsasında müvafiq məlumatlar (arayışlar) təqdim etmək;

*3.1.43-1. axtarışda olan, barəsində tutulma haqqında qərar qəbul edilən, cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb olunan, barəsində qətimkan tədbiri seçilən şəxslər haqqında məlumatları "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil etmək;*

*3.1.43-2. nəqliyyat vasitələrini və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulan malları Azərbaycan Respublikasının ərazisinə müvəqqəti gətirən və ya bu ərazidən müvəqqəti aparan fiziki şəxslər, onların nəqliyyat vasitələri və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulan malları haqqında məlumatları "Sərhədkeçmə zamanı xüsusi diqqət siyahısı"na daxil etmək və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunu dəyişdirmək;* [8]

*3.1.43-3. gömrük sərhədini keçən fiziki şəxslər barədə gömrük qanunvericiliyinin pozulmasına dair əməliyyat məlumatı olduqda həmin məlumatları, habelə gömrük qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə son bir il ərzində barəsində inzibati tənbeh tətbiq edilən və ibtidai istintaqı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aparılan cinayətlərə görə məhkumluğu olan şəxslər barədə məlumatları "Sərhədkeçmə zamanı xüsusi diqqət siyahısı"na daxil etmək və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunu dəyişdirmək;* [9]

3.1.44. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini Komitənin səlahiyyətinə aid məsələlər üzrə təmin etmək;

3.1.45. Komitənin sistemində maddi və maliyyə vəsaitlərinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək, struktur bölmələrin fəaliyyətinin səmərəliliyini artırmaq üçün müvafiq tədbirlər görmək;

3.1.46. qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fondunu idarə etmək və onun üzərində sərəncam vermək;

3.1.47. gömrük işi sahəsinə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.48. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.49. gömrük işi sahəsinə aid arxiv sənədlərinin müəyyən olunmuş qaydada ~~saxlanılmasını və~~ mühafizəsini təmin etmək; [10]

3.1.50. gömrük işi sahəsində kadr hazırlığını təmin etmək məqsədi ilə gömrük orqanlarının fəaliyyətini və vəzifəli şəxslərinin peşə hazırlığını mütəmadi yoxlamaq və zəruri tədbirlər görmək, Komitənin vəzifəli şəxslərinin və tabeliyində olan digər qurumların işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin etmək, onları müvafiq kurs və təlimlərə cəlb və ezam etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.51. Komitənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.52. Komitənin fəaliyyəti ilə bağlı vətəndaşlardan daxil olan təklif, ərizə və şikayətlərə baxmaq və vətəndaşların qəbulunu təmin etmək, daxil olmuş müraciətlərə vaxtında, o cümlədən yaradılmış internet saytı vasitəsilə cavab vermək və qanunvericiliklə müəyyən edilmiş qaydada digər tədbirlər görmək;

3.1.53. gömrük orqanlarında xidmətkeçmə və əmək münasibətləri haqqında qanunvericiliyin icrası üzrə tədbirlər görmək;

3.1.54. gömrük orqanlarının vəzifəli şəxslərinin və Komitənin tabeliyində olan digər qurumların işçilərinin dövlət və sosial müdafiəsi üzrə tədbirlər görmək, onların fiziki

hazırlığını təmin etmək və tibbi təminatını həyata keçirmək;

3.1.55. xidməti-tətbiqi idman növlərinin inkişafı proqramlarını, bədən tərbiyəsi və idman tədbirlərinin təqvim planlarını, hərbi idman kompleksinin normativlərini təsdiq etmək;

3.1.56. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Komitənin hüquqları

4.1. Komitə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. gömrük işi sahəsində normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. gömrük işi üzrə qanunvericilik aktlarına əsasən gömrük orqanlarına təqdim olunması nəzərdə tutulan sənəd və məlumatları şəxslərdən tələb etmək;

4.1.3. gömrük orqanlarına təqdim edilən məlumatların, sənədlərin və bəyannamələrin həqiqiliyini və düzgünlüyünü araşdırmaq;

4.1.4. şəxslərin xarici ticarət əməliyyatlarının gömrük auditini aparmaq;

4.1.5. dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin sənədlərini, o cümlədən malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarını (şəhadətnamələrini), *"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişi, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, sağlamlıq sertifikatını, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədləri* qanunvericiliyə uyğun olaraq yoxlamaq;[11]

4.1.6. malların və nəqliyyat vasitələrinin buraxılışından sonra şəxslərin bunlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərini yerinə yetirmələrini yoxlamaq, gömrük prosedurlarına nəzarəti həyata keçirmək, hüquqpozmaların operativ surətdə qarşısını almaq, əməliyyat-axtarış fəaliyyətini sürətləndirmək və digər məqsədlər üçün gömrük orqanlarının sistemi daxilində mobil qruplar təşkil etmək;

4.1.7. gömrük işi sahəsində cinayətlərin qarşısını almaq, belə cinayətləri törətmiş, habelə onların törədilməsində şübhəli bilinən şəxslərin saxlanılması və ya təqib edilməsi məqsədi ilə idarə, müəssisə və təşkilatlara (xarici dövlətlərin diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus olan və xüsusi təyinatlı nəqliyyat, rabitə vasitələri istisna edilməklə) məxsus rabitə və nəqliyyat vasitələrindən son zərurət vəziyyətində istifadə etmək;

4.1.8. təhqiqatı və istintaqı gömrük orqanlarının səlahiyyətinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxsləri müəyyənləşdirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

4.1.9. cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhqiqat və ibtidai istintaq aparmaq;

4.1.10. müvafiq qanunvericiliyə uyğun olaraq inzibati xətalarla bağlı işlər üzrə icraat aparmaq, bu işlərə baxmaq və inzibati xətalar törətmiş şəxsləri məsuliyyətə cəlb etmək;

4.1.11. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada fiziki qüvvədən, xüsusi vasitələrdən (o cümlədən texniki vasitələrdən) və odlu silahdan istifadə etmək;

4.1.12. müstəqil surətdə, yaxud digər hüquq mühafizə orqanları cəlb edilməklə, gömrük nəzarəti zonasında rejim qaydalarına riayət olunmasına nəzarət etmək, gömrük xidmətinin infrastruktur obyektlərinin mühafizə sistemini təşkil etmək, gömrük sərhədinin qorunması məqsədi ilə başqa tədbirləri həyata keçirmək;

4.1.13. malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi, həmçinin gömrük nəzarəti altında yerləşdirilən malların daşınması, saxlanılması, onlar üzərində yük əməliyyatlarının aparılması ilə bağlı faktları və hadisələri sənədləşdirmək, audioyazılar, video və foto çəkilişlər aparmaq;

4.1.14. öz funksiyalarını yerinə yetirmək məqsədi ilə şəxslərə gömrük qanunvericiliyinin pozulmasının aradan qaldırılması üçün yazılı formada xəbərdarlıqlar göndərmək və tələblərinin yerinə yetirilməsinə nəzarət etmək;

4.1.15. gömrük rəsmiləşdirilməsinin və nəzarətinin müasir metod və vasitələrinin tətbiqi məsələləri üzrə xarici ticarət iştirakçıları ilə əməkdaşlıq etmək məqsədi ilə onlarla rəsmi münasibətlər yaratmaq, məsləhətləşmələr aparmaq;

4.1.16. gömrük orqanlarında kargüzarlığın təşkil edilməsi, icra və əmək intizamına riayət olunması üzrə işin təşkili vəziyyətini yoxlamaq;

4.1.17. Azərbaycan Respublikasının və xarici dövlətlərin xüsusi təyinatlı təhsil müəssisələrində kadrların hazırlanması üzrə müqavilələr bağlamaq;

4.1.18. fəaliyyət istiqamətlərinə uyğun rəylər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, gömrük işi sahəsi üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.19. qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.20. Azərbaycan Respublikasının gömrük işi sahəsi üzrə beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təkliflər vermək;

4.1.21. qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.22. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.23. Komitə sisteminə daxil olan gömrük orqanlarının və onun tabeliyində olan digər qurumların fəaliyyətini yoxlamaq və təftişini həyata keçirmək;

4.1.24. gömrük işi sahəsi üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.25. qanunvericiliklə müəyyən edilmiş qaydada istifadəsində olan dövlət əmlakı barəsində hüquqları həyata keçirmək;

4.1.26. Komitənin ehtiyacları üçün əsaslı tikinti aparılması, bina və tikililərin yenidən qurulması və təmiri ilə bağlı işlər görmək, qanunvericilikdə nəzərdə tutulmuş hallarda müsabiqə keçirmək, müqavilələr bağlamaq, onların yerinə yetirilməsinə nəzarət etmək;

4.1.27. gömrük orqanlarının vəzifəli şəxslərinin və Komitənin tabeliyində olan digər qurumların işçilərinin əmək şəraitinin, maddi təminatının və sosial-məişət xidmətinin yaxşılaşdırılması barədə təkliflər vermək;

4.1.28. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Komitənin fəaliyyətinin təşkili

5.1. Komitənin aparatı, onun strukturuna daxil olan gömrük orqanları və tabeliyində olan digər qurumlar~~, həmçinin Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi~~ Komitənin vahid sistemini təşkil edir. Komitə öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.[12]

5.2. Komitənin strukturu və işçilərinin ümumi say tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

5.3. Komitə sistemində qulluq keçmə qaydaları və Komitənin vəzifəli şəxslərinin hüquqi statusunun əsasları qanunvericiliklə müəyyən edilir.

5.4. Komitəyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri (bundan sonra - sədr) rəhbərlik edir. Sədr Komitəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Sədrin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən *bir* birinci müavini və *üç* müavini vardır. Sədrin müavinləri onlara sədr tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.[13]

5.6. Sədr:

5.6.1. Komitənin işini təşkil edir və ona rəhbərlik edir;

5.6.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Komitənin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, istehsalat-təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.6.3. Komitənin aparatının struktur bölmələrinin, gömrük orqanlarının və tabeliyində olan digər qurumların əsasnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Komitənin kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.6.4. Komitənin tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini təsdiq edilmək üçün qanunvericiliklə müəyyən olunmuş qaydada təqdim edir;

5.6.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Komitənin aparatının, tabeliyində olan gömrük orqanlarının və digər qurumların strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

5.6.6. müəyyən edilmiş qaydada Komitənin aparatının işçilərini, gömrük orqanlarının və tabeliyində olan digər qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir,

həmçinin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir;

5.6.7. Komitənin vəzifəli şəxslərinin vəzifəyə təyin və vəzifədən azad etmə ilə bağlı səlahiyyətlərini müəyyən edir, kadr nomenklaturasını təsdiq edir və qanunvericiliklə müəyyən olunmuş qaydada işçilərin attestasiyasının keçirilməsini təşkil edir;

5.6.8. Komitənin vəzifəli şəxslərinin təltif edilmələri üçün müəyyən olunmuş qaydada döş nişanlarını təsis edir, onların təsvirini və əsasnaməsini təsdiq edir, Komitənin vəzifəli şəxslərini döş nişanı, Komitənin fəxri fərmanı ilə, həmçinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən səlahiyyət verildiyi halda, müvafiq medallarla təltif edir, habelə normativ hüquqi aktlarda nəzərdə tutulmuş digər həvəsləndirmə tədbirlərini tətbiq edir;

5.6.9. gömrük sisteminin inkişafı sahəsində səmərəli əməkdaşlığa və verdikləri töhfələrə görə Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, habelə beynəlxalq təşkilatların nümayəndələrini və ölkə vətəndaşlarını Komitənin fəxri fərmanı və döş nişanı, həmçinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən səlahiyyət verildiyi halda, müvafiq medalla təltif edir;

5.6.10. qanunvericiliklə müəyyən edilmiş qaydada Komitə sisteminə daxil olan gömrük orqanlarının vəzifəli şəxslərinin və tabeliyində olan digər qurumların işçiləri barədə intizam tənbehi tədbirlərini tətbiq edir;

5.6.11. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Komitədə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.6.12. Komitənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.6.13. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumları ilə münasibətlərdə Komitəni təmsil edir, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.6.14. Komitənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.6.15. dövlət büdcəsindən ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;

5.6.16. dövlət büdcəsindən ayrılmış vəsait və ştat sayı hüdudlarında, müəyyən olunmuş qaydada gömrük orqanlarının və Komitənin tabeliyində olan digər qurumların (Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası istisna olmaqla) yaradılması, yenidən təşkili və ləğvi barədə müvafiq qərarlar qəbul edir; [14]

5.6.17. Komitənin tabeliyində olan qurumların nəzdində özünümaliyyələşdirmə prinsipi əsasında fəaliyyət göstərən qurumların yaradılması, yenidən təşkili və ləğvi barədə müvafiq qərarlar qəbul edir;

5.6.18. dövlət büdcəsindən ayrılan vəsaitlərin, büdcədənkənar xüsusi vəsaitlərin sərəncamçısı olmaqla, maliyyə vəsaitini gömrük orqanları və Komitənin tabeliyində olan digər qurumlar arasında bölüşdürür, ayrılmış vəsaitlərin həddi nəzərə alınmaqla işçilərin vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.6.19. gömrük orqanlarına işə qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsini təmin edir;

5.6.20. gömrük orqanlarının vəzifəli şəxslərinə xüsusi rütbələr verir və ali xüsusi rütbələr verilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.6.21. Komitədə daxili təhlükəsizliyin təminatı məsələləri ilə əlaqədar qərarlar qəbul edir;

5.6.22. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası rəisinin təqdimatı ilə Akademiyanın Elmi Şurasının tərkibini təsdiq edir;

5.6.23. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası rəisinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası rəisinin müavinlərini Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası rəisinin təqdimatına əsasən vəzifəyə təyin və vəzifədən azad edir.[15]

5.7. Sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti olaraq icrasını müavinlərindən birinə tapşıra bilər.

5.8. Komitədə sədrdən (kollegiyanın sədri), onun müavinlərindən~~, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədrindən~~ və Komitənin digər rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Komitənin kollegiyasının tərkibinə həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilər.[16]

5.9. Kollegiya üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

5.10. Kollegiyanın iclaslarında gömrük orqanlarının fəaliyyətinin əsas istiqamətləri, icra intizamının vəziyyəti, kadr məsələləri, normativ hüquqi aktların layihələri müzakirə

olunur, digər mühüm məsələlərə baxılır və müvafiq qərarlar qəbul edilir.

5.11. Komitənin kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Komitə ilə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Komitəyə tapşırılmış konkret normativ hüquqi aktlar;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

5.11.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.11.5. sədrin təşəbbüsü ilə Komitənin kollegiyasının müzakirəsinə çıxarılan, bu Əsasnamənin 5.6.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktlar;

5.11.6. bu Əsasnamənin 5.11.1—5.11.5-ci yarımbəndlərinə uyğun olaraq Komitənin kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklərin edilməsi.

5.12. Komitənin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Komitənin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Komitənin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Kollegiyanın iclasları sədr tərəfindən mütəmadi olaraq çağırılır.

5.14. Kollegiyanın iş qaydasını sədr müəyyənləşdirir.

5.15. Komitənin kollegiyasının üzvləri və sədr arasında fikir ayrılığı yarandığı hallarda, sədr bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verərək öz qərarını həyata keçirir. Komitənin kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Prezidentinə çatdıra bilərlər.

5.16. Komitənin kollegiyasının iclaslarına, zəruri hallarda, digər icra hakimiyyəti orqanlarının və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

**Əlavə II**

Azərbaycan Respublikası
Prezidentinin
2012-ci il 4 iyun tarixli 646
nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin**

**S T R U K T U R U**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aparatı.

2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan *gömrük orqanları və tabeliyində olan digər* qurumlar: [17]

*2.1. ərazi gömrük idarələri:* [18]
*2.1.1. Bakı Baş Gömrük İdarəsi;*
*2.1.2. Naxçıvan Baş Gömrük İdarəsi;*
*2.1.3. Astara Gömrük İdarəsi;*
*2.1.4. Balakən Gömrük İdarəsi;*
*2.1.5. Biləsuvar Gömrük İdarəsi;*
*2.1.6. Gəncə Gömrük İdarəsi;*
*2.1.7. Xaçmaz Gömrük İdarəsi;*
*2.1.8. Sumqayıt Gömrük İdarəsi;*
*2.1.9. Şərqi Zəngəzur Gömrük İdarəsi;*
*2.1.10. Tovuz Gömrük İdarəsi;*
*2.2. ixtisaslaşdırılmış gömrük idarələri:*[19]
*2.2.1. Hava nəqliyyatında Baş Gömrük İdarəsi;*
*2.2.2. Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsi ;* [20]
*2.2.3. Aksizli mallar üzrə Baş Gömrük İdarəsi;*
*2.2.4. Azad və Xüsusi İqtisadi Zonalar üzrə Gömrük İdarəsi;*[21]
2.3. gömrük postları;

2.4. *tabeliyində olan* digər qurumlar: [22]
2.4.1. Tibbi Xidmət İdarəsi;
2.4.2. Avtomobil Nəqliyyatı İdarəsi;
2.4.3. Mərkəzi Gömrük Ekspertizası İdarəsi;
2.4.4. Baş Gömrük Mühafizə Xidməti;[23]
2.4.5. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası;[24]
2.4.6. “Azərterminalkompleks” Birliyi;
2.4.7. İdman-Sağlamlıq Mərkəzi;
2.4.8. Kinoloji Mərkəz;
2.4.9. gömrük laboratoriyaları.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 29 dekabr 2013-cü il tarixli **85** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1552)**
2. 16 yanvar 2014-cü il tarixli **86** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 yanvar 2014-cü il, № 9, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 1, maddə 14)**
3. 3 iyun 2015-ci il tarixli **543** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 4 iyun 2015-ci il, № 118, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 699)**
4. 30 sentyabr 2016-cı il tarixli **1050** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 1 oktyabr 2016-cı il, № 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1487)**
5. 6 oktyabr 2016-cı il tarixli **1067** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 1 oktyabr 2016-cı il, № 220, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1626)**
6. 27 dekabr 2017-ci il tarixli **1765** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 28 dekabr 2017-ci il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2333)**
7. 13 iyul 2018-ci il tarixli **201** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1487)**
8. 13 iyun 2019-cu il tarixli **739** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 14 iyun 2019-cu il, № 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1031)**
9. 24 fevral 2020-ci il tarixli **939** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 97)**
10. 16 iyun 2020-ci il tarixli **1061** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 17 iyun 2020-ci il, № 114, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 6, maddə 702)**
11. 18 iyul 2022-ci il tarixli **1753** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 19 iyul 2022-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 7, maddə 742)**
12. 18 avqust 2022-ci il tarixli **1811** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 18 avqust 2022-ci il, “Xalq” qəzeti, 19 avqust 2022-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 871)**
13. 28 noyabr 2022-ci il tarixli **1891** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 noyabr 2022-ci il, “Xalq” qəzeti, 29 noyabr 2022-ci il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1268)**
14. 20 fevral 2023-cü il tarixli **2037** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 20 fevral 2023-cü il, “Xalq” qəzeti, 21 fevral 2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 245)**
15. 29 mart 2023-cü il tarixli **2072** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 mart 2023-cü il, “Xalq” qəzeti, 30 mart 2023-cü il, № 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 3, maddə 368)**
16. 5 may 2023-cü il tarixli **2132** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 may 2023-cü il, “Xalq” qəzeti, 6 may 2023-cü il, № 93, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 5, maddə 636)**
17. 25 iyun 2023-cü il tarixli **2198** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 iyun 2023-cü il, “Xalq” qəzeti, 26 iyun 2023-cü il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 6, maddə 803)**
18. 19 iyul 2023-cü il tarixli **2232** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 iyul 2023-cü il, “Xalq” qəzeti, 20 iyul 2023-cü il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 957)**
19. 22 avqust 2023-cü il tarixli **2311** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan**

**Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 22 avqust 2023-cü il, "Xalq" qəzeti, 23 avqust 2023-cü il, № 179, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 8, I kitab, maddə 1178)**

FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 19 iyul 2023-cü il tarixli **2232** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 iyul 2023-cü il, "Xalq" qəzeti, 20 iyul 2023-cü il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 957**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqın d a əsasnamə"nin 3.1.10-cu yarımbəndində "**qanunvericilikdə**" sözü "**normativ hüquqi aktlarda**" sözləri ilə əvəz edilmişdir, həmin yarımbənddən "**lisenziya və**" sözləri çıxarılmışdır.

[2] 27 dekabr 2017-ci il tarixli **1765** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 28 dekabr 2017-ci il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2333**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"nin 3.1.22-ci yarımbəndinə "**valyuta nəzarətini həyata keçirmək**" sözlərindən sonra "**, o cümlədən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından çıxarılması zamanı, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi izlərini aşkar etdikdə, cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görmək, əldə olunmuş sənədləri aidiyyəti üzrə cinayət təqibini həyata keçirən orqana göndərmək, habelə bu barədə məlumatı maliyyə monitorinqi orqanına təqdim etmək**" sözləri əlavə edilmişdir.

22 avqust 2023-cü il tarixli **2311** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 22 avqust 2023-cü il, "Xalq" qəzeti, 23 avqust 2023-cü il, № 179, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 8, I kitab, maddə 1178**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"nin 3.1.22-ci yarımbəndində "**və xarici valyutanın, digər**" sözləri "**valyuta və**" sözləri ilə, "**məlumatı**" sözü "**məlumat və sənədləri**" sözləri ilə əvəz olunmuşdur, həmin yarımbəndə "**o cümlədən**" sözlərindən sonra "**milli valyutanın və**" sözləri, "**olunmuş**" sözündən sonra "**məlumat və**" sözləri əlavə edilmişdir və həmin yarımbənddən "**pul vəsaitlərinin və ya digər**" sözləri çıxarılmışdır.

[3] 16 iyun 2020-ci il tarixli **1061** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 17 iyun 2020-ci il, № 114, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 6, maddə 702**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"yə yeni məzmunda 3.1.24-1-ci yarımbənd əlavə edilmişdir.

[4] 3 iyun 2015-ci il tarixli **543** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 4 iyun 2015-ci il, № 118, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 699**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"yə yeni məzmunda 3.1.25-1-ci yarımbənd əlavə edilmişdir.

[5] 29 mart 2023-cü il tarixli **2072** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 29 mart 2023-cü il, "Xalq" qəzeti, 30 mart 2023-cü il, № 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 3, maddə 368**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"nin 3.1.28-ci yarımbəndi ləğv edilmişdir.

[6] 19 iyul 2023-cü il tarixli **2232** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 iyul 2023-cü il, "Xalq" qəzeti, 20 iyul 2023-cü il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 957**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"yə yeni redaksiyada 3.1.28-1-ci yarımbənd əlavə edilmişdir.

[7] 6 oktyabr 2016-cı il tarixli **1067** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 oktyabr 2016-cı il, № 220, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1626**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"nin 3.1.42-ci yarımbəndinə "**ictimai informasiyanın**" sözlərindən sonra "**, o cümlədən həyata keçirilən xarici ticarət əməliyyatları zamanı risk qrupları üzrə buraxılış sistemlərindən istifadə ilə bağlı, habelə idxalatçıların müəyyən risk qrupuna aid edilməsi və ya onların risk qruplarının dəyişdirilməsi barədə məlumatların**" sözləri əlavə edilmişdir.

[8] 30 sentyabr 2016-cı il tarixli **1050** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 oktyabr 2016-cı il, № 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1487**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"yə yeni məzmunda 3.1.43-1-ci və 3.1.43-2-ci yarımbəndlər əlavə edilmişdir.

[9] 24 fevral 2020-ci il tarixli **939** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 25 fevral 2020-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 97**) ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamə"yə yeni məzmunda 3.1.43-3-cü yarımbənd əlavə edilmişdir.

[10] 18 avqust 2022-ci il tarixli 1811 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 18 avqust 2022-ci il, "Xalq" qəzeti, 19 avqust 2022-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 871)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 3.1.49-cu yarımbəndindən "**saxlanılmasını və**" sözləri çıxarılmışdır.

[11] 13 iyun 2019-cu il tarixli 739 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyun 2019-cu il, № 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1031)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 4.1.5-ci yarımbəndinə "**(şəhadətnamələrini)**" sözündən sonra "**, qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatını, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışı**" sözləri əlavə edilmişdir.

20 fevral 2023-cü il tarixli 2037 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 20 fevral 2023-cü il, "Xalq" qəzeti, 21 fevral 2023-cü il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 2, maddə 245)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 4.1.5-ci yarımbəndində "**qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatını, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışı**" sözləri "**Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişi, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, sağlamlıq sertifikatını, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədləri**" sözləri ilə əvəz edilmişdir.

[12] 28 noyabr 2022-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 noyabr 2022-ci il, "Xalq" qəzeti, 29 noyabr 2022-ci il, № 260)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.1-ci bəndindən "**, həmçinin Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi**" sözləri çıxarılmışdır.

[13] 29 dekabr 2013-cü il tarixli 85 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1552)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.5-ci bəndində "**üç müavini**" sözləri "**dörd müavini**" sözləri ilə əvəz edilmişdir.

18 iyul 2022-ci il tarixli 1753 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 19 iyul 2022-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 7, maddə 742)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.5-ci bəndinin birinci cümləsində "**bir**" sözü "**iki**" sözü ilə əvəz edilmişdir.

25 iyun 2023-cü il tarixli 2198 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 iyun 2023-cü il, "Xalq" qəzeti, 26 iyun 2023-cü il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 6, maddə 803)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.5-ci bəndinin birinci cümləsində "**iki**" sözü "**bir**" sözü ilə və "**dörd**" sözü "**üç**" sözü ilə əvəz edilmişdir.

[14] 16 yanvar 2014-cü il tarixli 86 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 yanvar 2014-cü il, № 9, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 1, maddə 14)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.6.16-cı yarımbənddə "**qurumların**" sözündən sonra "**(Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[15] 16 yanvar 2014-cü il tarixli 86 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 yanvar 2014-cü il, № 9, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 1, maddə 14)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.6.21-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 5.6.22-ci və 5.6.23-cü yarımbəndlər əlavə edilmişdir.

[16] 28 noyabr 2022-ci il tarixli 1891 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 noyabr 2022-ci il, "Xalq" qəzeti, 29 noyabr 2022-ci il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1268)** ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.8-ci bəndindən "**, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədrindən**" sözləri çıxarılmışdır.

[17] 5 may 2023-cü il tarixli 2132 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 may 2023-cü il, "Xalq" qəzeti, 6 may 2023-cü il, № 93, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 5, maddə 636)** ilə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"nun 2-ci hissənin birinci abzasına "**daxil olan**" sözlərindən sonra "**gömrük orqanları və tabeliyində olan digər**" sözləri əlavə edilmişdir.

[18] 13 iyul 2018-ci il tarixli 201 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1487)** ilə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Strukturu"na yeni məzmunda 2.1.2-1-ci, 2.1.2-2-ci və 2.1.2-3-cü yarımbəndlər əlavə edilmişdir.

28 noyabr 2022-ci il tarixli 1891 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət**

**İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 noyabr 2022-ci il, “Xalq” qəzeti, 29 noyabr 2022-ci il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1268)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu”na yeni məzmunda 2.1.1-1-ci yarımbənd əlavə edilmişdir.

5 may 2023-cü il tarixli **2132** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 may 2023-cü il, “Xalq” qəzeti, 6 may 2023-cü il, № 93, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 5, maddə 636)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu”nun 2.1-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~2.1. ərazi gömrük idarələri:~~
~~2.1.1. Bakı Baş Gömrük İdarəsi;~~
~~2.1.1-1. Naxçıvan Baş Gömrük İdarəsi;~~
~~2.1.2. Sumqayıt Baş Gömrük İdarəsi;~~
~~2.1.2-1. Qərb Ərazi Baş Gömrük İdarəsi;~~
~~2.1.2-2. Cənub Ərazi Baş Gömrük İdarəsi;~~
~~2.1.2-3. Şimal Ərazi Baş Gömrük İdarəsi;~~
~~2.1.3. digər ərazi gömrük idarələri;~~

[19] 29 dekabr 2013-cü il tarixli **85** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1552)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Strukturu”nun 2.2.4-cü və 2.2.5-ci yarımbəndləri yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~2.2.4. Aksiz Gömrük İdarəsi;~~
~~2.2.5. Avtonəqliyyat Gömrük İdarəsi;~~

13 iyul 2018-ci il tarixli **201** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1487)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Strukturu”nun 2.2-ci bəndi yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~2.2. ixtisaslaşdırılmış gömrük idarələri:~~
~~2.2.1. Hava Nəqliyyatında Baş Gömrük İdarəsi;~~
~~2.2.2. Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi Gömrük İdarəsi;~~
~~2.2.3. Enerji Gömrük İdarəsi;~~
~~2.2.4. Aksiz Baş Gömrük İdarəsi;~~
~~2.2.5. Avtonəqliyyat Baş Gömrük İdarəsi;~~

[20] 5 may 2023-cü il tarixli **2132** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 may 2023-cü il, “Xalq” qəzeti, 6 may 2023-cü il, № 93, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 5, maddə 636)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu”nun 2.2.2-ci yarımbəndində “**Enerji resursları və dəniz nəqliyyatında Baş Gömrük İdarəsi**” sözləri **“Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsi**” sözləri ilə əvəz edilmişdir.

[21] 5 may 2023-cü il tarixli **2132** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 may 2023-cü il, “Xalq” qəzeti, 6 may 2023-cü il, № 93, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 5, maddə 636)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu”na yeni məzmunda 2.2.4-cü yarımbənd əlavə edilmişdir.

[22] 5 may 2023-cü il tarixli **2132** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 may 2023-cü il, “Xalq” qəzeti, 6 may 2023-cü il, № 93, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 5, maddə 636)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu”nun 2.4-cü bəndinə “**digər qurumlar**” sözlərindən əvvəl “**tabeliyində olan**” sözləri əlavə edilmişdir.

[23] 29 dekabr 2013-cü il tarixli **85** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1552)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Strukturu”nun 2.4.4-cü yarımbənd yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~2.4.4. Gömrük Mühafizə Xidməti;~~

[24] 16 yanvar 2014-cü il tarixli **86** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 yanvar 2014-cü il, № 9, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 1, maddə 14)** ilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Strukturu”nun 2.4.5-ci yarımbəndi yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~2.4.5. Gömrük Akademiyası;~~